Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal vol. 6, № 1, 2024, pp. 92-95.

# "YUMŞAQ GÜC"ÜN DESTRUKTİV POTENSİALI

**N.R. Əhmədov[1a], R.E. Mustafayev[1,b]**

[1] *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
[a] nicat.ahmadov@sport.edu.az, orcid.org/0009-0001-2455-5057
[b] ramin.mustafayev@sport.edu.az, orcid.org/0009-0007-9492-7585

**Nəşr tarixi**
Qəbul edilib: 29 yanvar 2024
Dərc olunub: 25 mart 2024
© 2021 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** "Yumşaq güc" vasitələrinin rolunun artması qlobal siyasi proseslərin transformasiyasının nəticəsidir. Bununla belə, "yumşaq güc"ün hərbi təsir vasitələrini tam şəkildə siyasi arenadan sıxışdırıb çıxarmasını söyləmək çətindir. Müasir praktikada elə hallara rast gəlinir ki, orada "yumşaq güc" vasitələrinin tətbiqi nəticəsində siyasi vəziyyətin qeyri-sabitliyi, xarici müdaxilə, silahlı qiyam və hətta siyasi rejimlərin devrilməsi baş verir. Bu tip hadisələrə keçmiş postsovet məkanında, "Ərəb baharı"nı əhatə edən Yaxın və Orta Şərq ölkələrində baş vermiş rəngli inqilablarda və hakimiyyət dəyişikliklərində rast gəlinir. Həmin proseslər fonunda "yumşaq güc" vasitələrini ciddi fəsadlara və qanlı hadisələrə səbəb olan çevriliş texnologiyası kimi xarakterizə etmək mümkündür. Bu isə, "yumşaq güc"ün hadisələrin gedişindən asılı olaraq "sərt güc"lə sinxronluq təşkil etməsinə əsaslanmışdır. Siyasətdə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün qeyri-güc alətlərindən istifadə etmək fikri yeni deyil, onun dərin köklərinə hələ antik dövrün sosial-fəlsəfi təfəkküründə rast gəlmək olar. Bəşər tarixi boyunca "yumşaq güc" dəfələrlə dünyada baş verən gedən proseslərə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Misal olaraq Qərblə Şərq arasında yarım əsr davam etmiş qlobal ideoloji qarşıdurmanın süqutunu göstərmək kifayətdir. "Yumşaq güc" – xarici siyasət sahəsində digər aktorların rəğbətini qazanmaq və onları inandırmaq yolu ilə hədəflərə çatmaq bacarığıdır.

**Açar sözlər:** *yumşaq güc, dolayı fəaliyyətlər strategiyası, qeyri-zorakı mübarizə nəzəriyyəsi, idarəolunan xaos nəzəriyyəsi, informasiya müharibəsi, İkinci Qarabağ müharibəsi, ictimai diplomatiya, diaspor.*

"Yumşaq güc" vasitələrinin rolunun artması qlobal siyasi proseslərin transformasiyasının nəticəsidir. Bununla belə, "yumşaq güc"ün hərbi təsir vasitələrini tam şəkildə siyasi arenadan sıxışdırıb çıxarmasını söyləmək çətindir. Müasir praktikada elə hallara rast gəlinir ki, orada "yumşaq güc" vasitələrinin tətbiqi nəticəsində siyasi vəziyyətin qeyri-sabitliyi, xarici müdaxilə, silahlı qiyam və hətta siyasi rejimlərin devrilməsi baş verir. Bu tip hadisələrə keçmiş postsovet məkanında, "Ərəb baharı"nı əhatə edən Yaxın və Orta Şərq ölkələrində baş vermiş rəngli inqilablarda və hakimiyyət dəyişikliklərində rast gəlinir. Həmin proseslər fonunda "yumşaq güc" vasitələrini ciddi fəsadlara və qanlı hadisələrə səbəb olan çevriliş texnologiyası kimi xarakterizə etmək mümkündür. Bu isə, "yumşaq güc"ün hadisələrin gedişindən asılı olaraq "sərt güc"lə sinxronluq təşkil etməsinə əsaslanmışdır. Məqalənin hazırlanmasında tarixi, politoloji və müqayisəli təhlil metodundan istifadə edilmişdir. Siyasətdə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün qeyri-güc alətlərindən istifadə etmək fikri yeni deyil, onun dərin köklərinə hələ antik dövrün sosial-fəlsəfi təfəkküründə rast gəlmək olar. Bəşər tarixi boyunca "yumşaq güc" dəfələrlə dünyada baş verən gedən proseslərə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Misal olaraq Qərblə Şərq arasında yarım əsr davam etmiş qlobal ideoloji qarşıdurmanın süqutunu göstərmək kifayətdir. "Yumşaq güc" – xarici siyasət sahəsində digər aktorların rəğbətini qazanmaq və onları inandırmaq yolu ilə hədəflərə çatmaq bacarığıdır. Bu xüsusi tip xarici-siyasət fəaliyyəti olaraq, bir dövlətin nüfuzunun digərinə media, populyar və yüksək mədəniyyət vasitəsilə yayılması, təhsil xidmətlə-

rinin təqdim edilməsi və əlverişli iqtisadi mühitin yaradılması, cəlbedici humanitar və siyasi ideallarin yayılması və beynəlxalq münasibətlərin digər subyektlərinin idxal etmək istədiyi özünəməxsus dəyərlər sistemidir.

Ümumiyyətlə, həyata keçirilmə məqsədindən, məzmunundan və texnologiyanın tətbiqolunma istiqamətindən asılı olaraq, "yumşaq güc"dən istifadə praktikası iki növə bölünür [1, c.75]. Birinci halda "yumşaq güc" dövlətlər və xalqlar arasında qarşılıqlı anlaşmanı inkişaf etdirən müsbət bir texnologiya kimi qiymətləndirilir. İkinci halda isə "yumşaq güc" dövlətin idarəetmə sistemini və bütövlükdə ölkənin sabitsizləşdirilməsi, dövlətin sosial nizamına ciddi ziyan vurmaqla, konstitusiyaya zidd hakimiyyət dəyişikliyi, dövlətin süqutu və ya müflis hala düşməsi üçün bir vasitə olaraq qəbul edilir. Sonuncu halda "yumşaq güc" "sərt güc"dən heç də fərqlənmir. Hətta onlar arasındakı fərqi tapmaq belə mümkünsüz görünür. Bu halda "yumşaq güc" hərbi müdaxilə ilə assosiasiya edilir.

Təhlükəsizliyin "yumşaq" və "sərt" aspektlərinin fərqli xüsusiyyətlərinin tanınması mühüm nəzəri və siyasi təsirlərə malikdir. Dövlətin (və ya bölgənin) "yumşaq təhlükəsizliyi" elə bir vəziyyət (durum) kimi qiymətləndirilir ki, xarici və daxili siyasət sosialyönümlü olmalı, insanın və cəmiyyətin fərdi, ictimai maraqlarına, ehtiyaclarına və dəyərlərinə, habelə dövlətin sabitliyinə birbaşa təhdid olan qeyri-hərbi xarakterli risk və problemlərdən qorunmasını təmin etməlidir [6].

Yumşaq təhdidlər aşağıdakı təhlükə növlərini əhatə edir [2, s.266-267]:

1) informativ (dezinformasiya, ictimai rəyin manipulyasiyası, mənfi informasiya təsiri); təsir agentlərinin destruktiv fəaliyyəti (xarici və daxili);
2) vətəndaş identikliyinin təməlinin pozulması;
3) dilçilik;
4) kiberhücumlar, kiberterrorizm;
5) qanunsuz miqrasiya;
6) əhalinin həddən artıq çox olması və ya əhali itkisi;
7) əhalinin təhsil səviyyəsinin, elmi potensialının aşağı düşməsi, "beyin axını";
8) texnoloji və iqtisadi inkişafın məhsuldarlığına təhdidlər;
9) gender, dini bərabərsizlik, digər bərabərsizlik formaları;
10) ekoloji, təbii fəlakətlər;
11) iqlim çağırışları;
12) enerji və su ehtiyatları ilə təminedilmə;
13) korrupsiya, mütəşəkkil cinayətkarlıq, qaçaqmalçılıq;
14) narkoticarət və narkotrafik, qanunsuz silah ticarəti, insan alveri;
15) xəstəliklərin və virusların yayılması;
16) ərzaq tədarükünün kəsilməsi, qıtlıq.

Siyasətdə qeyri-zorakı vasitələrin yeri və rolu yeni müzakirə mövzusu deyil. Hələ 1973-cü ildə Harvard Universitetinin professoru J.Sharp "Qeyri-zorakı fəaliyyətlər siyasəti" adlı bir kitab yazmış və orada qeyri-zorakı siyasi mübarizə nəzəriyyəsini və praktikasını inkişaf etdirməyə müvəffəq olmuşdur. Texnologiya səviyyəsinədək inkişaf etdirilmiş bu nəzəriyyənin əsas məqsədi siyasi hakimiyyəti ələ keçirməkdir. Bu texnologiya daha çox ipə-sapa yatmayan, böyük dövlətlərin maraqlarına cavab verməyən siyasi rejimlərə qarşı tətbiq edilmişdir. Qeyri-zorakı mübarizənin 198 metodunu işləyib hazırlamış müəllif onları 5 iri bloklara bölmüşdür [3, s.101-110]:

– qeyri-zorakı etiraz və inandırma üsulları;
– sosial əməkdaşlıqdan imtina üsulları;
– iqtisadi əməkdaşlıqdan imtina üsulları;
– siyasi əməkdaşlıqdan imtina üsulları;
– qeyri-zorakı müdaxilə üsulları.

Bu blokların da hər biri, öz növbəsində müxtəlif qruplara bölünür.

**Vətən müharibəsində Azərbaycan Respublikasının "yumşaq güc" resurslarının yeri və rolu.** Vətən müharibəsində tarixi zə-fərin əldə edilməsində Azərbaycanın "ağır güc" vasitələri ilə yanaşı, "yumaq güc" resurslarının da mühüm rol oynamışdır. Sonuncuya, ölkəmizin diaspora təşkilatları və informasiya müharibəsi, ictimai diplomatiya (müharibə zamanı ölkədəki QHT-lərin mövqeyi), enerji və iqtisadi potensial aid edilir. Müharibə dövrün-də dünyanın bir çox ölkələrinə səpələnən 50 milyondan çox azərbaycanlı soydaşlarımız bir

yumruq kimi birləşərək dövlətimizə, ordumuza dəstək olmuş, Azərbaycan həqiqətlərini dünyaya yaymaqda fəallıq göstərmişlər. Diaspora dövlətinin maraqlarını beynəlxalq aləmdə qorumaq və təbliğ etmək üçün vacib bir mexanizmdir. Bu gün diaspora respublikanın ən mühüm sosialmədəni və intellektual təsir resursudur. Məhz bu səbəbdən Azərbaycan Respublikasının milli marağı diasporanın elm, iqtisadiyyat və mədəniyyət sahəsindəki potensialından bütün xalqın rifahı üçün daha dolğun istifadəyə kömək edəcək bir siyasət yürütməkdir. Qeyd etmək lazımdır ki, komitə və diaspor nümayəndələri tərəfindən ölkəmizlə bağlı həqiqətləri əks etdirən 355 məqalə hazırlanaraq 43 ölkənin müxtəlif qəzet və saytlarında 26 dildə ictimaiyyətə təqdim edilmişdir. 36 xarici ölkədə 198 tədbir keçirilmişdir ki, bunlardan 111-i yürüş mitinqi olmuşdur [4, 5].

44 günlük vətən müharibəsində qələbənin qazanılmasında Ölkəmizin informasiya təhlükəsizliyinin yüksək şəkildə təmin edilməsi mühüm rol oynamışdır. İnformasiya təhlükəsizliyi ölkə haqqında ictimai fikirlərin təhrif olunmasına yol verməmək, ölkənin informasiya məkanına və informasiya resurslarına zərərli müdaxilələrin qarşısının alınmasına yönələn fəaliyyətlər məcmusudur. Vətən müharibəsində ölkəmizin informasiya sahəsində işğalçı ölkədən üstünlüyünü Ermənistan prezidenti Sarkisyan öz çıxışlarının birində etiraf etmişdir. Onun fikrincə, Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi tarixi qələbədə ölkəmizin müasir silahlarla (dronlar) silahlanmış Ordusu, demoqrafiq inkişafı və informasiya təhlükəsizliyinin etibarlı təminatı mühüm rol oynamışdır. 44 günlük hərbi əməliyyatlar zamanı Ali Baş Komandanın Azərbaycanın haqq səsinin dünya mediasına və birliyinə çatdırması diplomatik sahədə və informasiya müharibəsindəki uğurlarımızda, Qarabağın işğaldan azad edilməsi prosesində qələbəmiz üçün müstəsna əhəmiyyət kəsb etdi. Ölkə baş-çısı 44 gün ərzində 26 xarici KİV-rə müsahibə vermişdir. Həmin müsahibələrdə ölkəmizə qarşısəslənən qərəzli fikirləri öz dəmir iradəsi, təmkini və iti zəkası ilə alt-üst etməyi bacarmışdı [4, 5].

## ƏDƏBİYYAT

1. **Наумов А.О.** *Мягкая сила» и «цветные революции*. Российский журнал правовых исследований, 2016, № 1(6), с. 73-86.
2. **Ворочков А.П.** *Мягкая сила» современной России: институциональный аспект*. Теории и проблемы политических исследований, 2016, Том 5, № 5А, с. 258-275.
3. **Шарп Д.** *От диктатуры к демократии*. Д. Шарп. Екатеринбург: Нов. изд - во, 2005, 84 с.
4. *44 gündə diaspor nələr edib?* - Xalq rəssamı danışdı: [Elektron resurs] / URL: https://axar.az/news/musahibe/570652.html.
5. *Sosial Tədqiqatlar Mərkəzinin Nizamnaməsi*: [Elektron resurs]. 12.04.2019. URL: https://azertag.az/xeber/Sosial_Tedqiqatlar_Merkezinin_ NIZAMNAMASI-1269062.
6. mod.gov.az/images/pdf/785ca8ce2b3b9e99fcda59a5181d7d6a.pdf.

# РАЗРУШИТЕЛЬНЫЙ ПОТЕНЦИАЛ «МЯГКОЙ СИЛЫ»

**Н.Р. Ахмедов[1a], Р.Е. Мустафаев[1,b]**

[1] *Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
[a] nicat.ahmadov@sport.edu.az, orcid.org/0009-0001-2455-5057
[b] ramin.mustafayev@sport.edu.az, orcid.org/0009-0007-9492-7585

**Аннотация.** Повышение роли инструментов «мягкой силы» является результатом трансформации глобальных политических процессов. Однако сложно сказать, что «мягкая сила» полностью вытеснила с политической арены средства военного воздействия. В современной практике известны случаи, когда использование «мягкой

силы» означает нестабильность политической ситуации, иностранное вмешательство, вооруженное восстание и даже свержение политических режимов. События такого типа можно найти в красочных революциях и сменах власти, которые происходили на бывшем постсоветском пространстве, в странах Ближнего и Среднего Востока, окружающих «арабскую весну». На фоне этих процессов средства «мягкой силы» можно охарактеризовать как революционную технологию, вызывающую серьезные последствия и кровавые события. Это основано на синхронизации «мягкой силы» с «жесткой силой» в зависимости от хода событий. Идея использования невластных инструментов для достижения поставленных в политике целей не нова, ее глубокие корни можно найти в социально-философском мышлении античности. На протяжении всей истории человечества «мягкая сила» неоднократно оказывала существенное влияние на происходящие в мире процессы. В качестве примера достаточно показать крах глобального идеологического конфликта между Западом и Востоком, продолжавшегося полвека. «Мягкая сила» – это способность завоевывать симпатии других акторов внешней политики и достигать целей путем их убеждения.

**Ключевые слова:** *мягкая сила, стратегия непрямых действий, теория ненасильственной борьбы, теория управляемого хаоса, информационная война, Вторая карабахская война, общественная дипломатия, диаспора.*

## THE DESTRUCTIVE POTENTIAL OF "SOFT POWER"

**N.R. Ahmadov[1a], R.E. Mustafayev[1,b]**

[1] *Azerbaijan State Academy of Physical Education and Sport*
[a] nicat.ahmadov@sport.edu.az, orcid.org/0009-0001-2455-5057
[b] ramin.mustafayev@sport.edu.az, orcid.org/0009-0007-9492-7585

**Annotation.** The increase in the role of "soft power" tools is a result of the transformation of global political processes. However, it is difficult to say that "soft power" has completely displaced the means of military influence from the political arena. In modern practice, there are cases where the use of "soft power" means instability of the political situation, foreign intervention, armed uprising, and even the overthrow of political regimes. This type of events can be found in the colorful revolutions and changes of government that took place in the former post-Soviet space, in the countries of the Near and Middle East surrounding the "Arab Spring". Against the background of those processes, it is possible to characterize the means of "soft power" as a revolutionary technology that causes serious consequences and bloody events. This is based on the synchronization of "soft power" with "hard power" depending on the course of events. The idea of using non-power tools to achieve the goals set in politics is not new, its deep roots can be found in the socio-philosophical thinking of antiquity. Throughout human history, "soft power" has repeatedly had a significant impact on ongoing processes in the world. As an example, it is enough to show the collapse of the global ideological conflict between the West and the East, which lasted for half a century. "Soft power" is the ability to gain the sympathy of other actors in the field of foreign policy and achieve goals by persuading them.

**Keywords:** *soft power, strategy of indirect actions, theory of non-violent struggle, theory of controlled chaos, information war, Second Karabakh war, public diplomacy, diaspora.*